AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 6 (1453), 15 - 21 sentyabr 2020-ci il

Qəzet 2001-ci ildən çıxır.

## “Qarabağ” sabah Çempionlar Liqasında növbəti oyununa çıxacaq




Bu gün UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinə start veriləcək. Azərbaycanın Çempionlar Liqasındakı yeganə təmsilçisi “Qarabağ” bu mərhələdə Norveçin “Molde” klubu ilə qarşılaşacaq. Qarşılaşma sabah Kiprin Larnaka şəhərində keçiriləcək. “AEK Arena”da təşkil olunacaq qarşılaşma Bakı vaxtı ilə saat 21:00-da başlayacaq. UEFA Kiprə salınan qarşılaşmanı Serbiyadan olan hakimlər briqadasına həvalə edib. Görüşü Srdyan Yovanoviç idarə edəcək. Ona həmyerliləri Uroş Stoykoviç və Milan Mixayloviç kömək edəcəklər. Qarşılaşmanın dördüncü hakimi funksiyasını isə Novak Simoviç yerinə yetirəcək.

Xatırladaq ki, Ağdam təmsilçisi Çempionlar Liqasının ikinci təsnifat mərhələsində Tofiq Bəhramov adına Respublika stadionunda Moldovanın “Şerif” klubunu 2:1 hesabı ilə məğlub etmişdi.

## Azərbaycan Kikboksinq Federasiyasının yeni prezidenti seçilib

Azərbaycan Kikboksinq Federasiyasının idarə heyətinin onlayn iclası keçirilib. İclasda Orxan Əliyev qurumun yeni prezidenti seçilib. Federasiyanın əvvəlki prezidenti, Milli Məclisin vitse-spikeri Adil Əliyev isə qurumun fəxri sədri seçilib.

Adil Əliyev yeni prezidentə inandığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Orxan Əliyev isə göstərilən etimada görə təşəkkürünü bildirib və bu etimadı doğruldacağına söz verib: “Azərbaycan Kikboksinq Federasiyasının prezidenti seçilmək mənim üçün qürurvericidir. Mənə göstərilən etimadı doğrultmağa, federasiyanı daha da irəli aparmağa çalışacağam. Azərbaycan Kikboksinq Federasiyası ölkədə idmanın inkişafına töhfə verməyə davam edəcək”.

Qeyd edək ki, O.Əliyev 1981-ci ildə anadan olub. O, 2002-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirib və özəl sektorda uğurlu fəaliyyət göstərib. Müxtəlif beynəlxalq biznes forumları və konfranslarda Azərbaycanı təmsil edən O.Əliyev beynəlxalq idman yarışlarının təşkilatçısı və sponsoru olub.

**UEFA Avropa Liqası** **II təsnifat mərhələsi**

## “Neftçi” - “Qalatasaray”

(Azərbaycan) (Türkiyə)

*17sentyabr. Bakı. Olimpiya Stadionu. Saat 20:00.*

## Olimpizm

### “Tokio Yay Olimpiya Oyunları nəyin bahasına olursa-olsun keçirilməlidir”

Koronavirus pandemiyası səbəbindən 2021-ci ilə təxirə salınmış Tokio Yay Olimpiya Oyunları idmançıların və təşkilatçıların səyləri nəzərə alınaraq nəyin bahasına olursa-olsun keçirilməlidir.

Kyodo agentliyinin yaydığı xəbərdə bildirilir ki, bu sözləri Yaponiyanın Olimpiya və Paralimpiya Oyunları üzrə naziri Seyko Haşimoto Beynəlxalq Olimpiya Komitəsinin (BOK) vitse-prezidenti Con Koutsun Tokioda Olimpiadanın keçiriləcəyini söyləyən açıqlamasına münasibət bildirərkən deyib.

BOK-un vitse-prezidenti koronavirus pandemiyası ilə bağlı vəziyyətdən asılı olmayaraq yarışın baş tutacağını bildirib.

Qeyd edək ki, Tokio Olimpiadasının iyulun 24-dən avqustun 9-dək keçirilməsi nəzərdə tutulurdu.

Koronavirus pandemiyası səbəbindən Oyunlar bir il təxirə salınıb və gələn il iyulun 23-dən avqustun 8-dək keçirilməsi planlaşdırılır.



### BOK prezidenti Olimpiada zamanı təhlükəsiz mühitin yaradılmasının zəruriliyini vurğulayıb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tokio Olimpiya və Paralimpiya Oyunlarının bütün iştirakçıları üçün tam təhlükəsizlik şəraiti yaradıldığı halda yarışların keçirilməsinin mümkünlüyünü vurğulayıb. Tomas Bax bunu BOK rəhbərliyinin onlayn rejimdə keçirilən iclasından sonra təşkil edilən mətbuat konfransı zamanı bildirib.

“Qarşıdakı bir neçə həftə ərzində siz COVID-19-a qarşı həyata keçiriləcək mühüm və fərqli ssenarilər üzrə tədbirlərin müzakirəsinin şahidi olacaqsınız”, - deyə T.Bax qeyd edib.

Tokioda cari ildə keçirilməsi planlaşdırılan Yay Olimpiya və Paralimpiya Oyunları koronavirus pandemiyasına görə bir il müddətinə təxirə salınıb. Həmin idman tədbirinə hazırlıqla bağlı məsələlər BOK-un Əlaqələndirmə Komissiyasının sentyabrın 24-də keçiriləcək iclasında müzakirə ediləcək.

Xatırladaq ki, BOK-un Əlaqələndirmə Komissiyasının sədri Con Kouts son müsahibələrinin birində vurğulayıb: “Tokio Oyunları gələn il iyulun 23-də COVID-19-un olmasından və ya olmamasından asılı olmayaraq keçiriləcək”.

Bu məsələyə daha ehtiyatla yanaşan T.Bax isə bildirib ki, Olimpiya Oyunları ilə əlaqədar indiyə qədər qəbul edilən qərarlar zamanı əsas götürülən prinsipə ciddi şəkildə əməl ediləcək. Bu isə o deməkdir ki, həmin hadisə ilə bağlı bütün iştirakçıların təhlükəsizliyi təmin olunacağı təqdirdə Olimpiya Oyunları təşkil ediləcək.

### Tokio-2020: Təşkilat Komitəsi sponsorlar ilə müqavilələri hələ yeniləməyib

Tokio-2020 Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi sponsorlar ilə bu ilin sonunadək qüvvədə olan müqavilələri hələ yeniləməyib.

“Reuters” agentliyinin yaydığı xəbərdə bildirilir ki, bəzi sponsorlar müqavilənin uzadılmasının səmərəliliyinə şübhə edirlər. Bundan əlavə, əvvəllər müqavilə bağlayan bir sıra şirkətlər koronavirusun yayılması səbəbindən artıq maddi çətinliklərlə üzləşiblər. Digər tərəfdən, sponsorlar düşünürlər ki, Olimpiya Oyunlarına əlavə dəstək verməkdən imtina etmələri onların imicinə xələl gətirə bilər. Agentliyin məlumatına görə, olimpiadanın təşkilatçıları əvvəllər Yaponiya şirkətlərindən 3,1 milyardadək vəsait cəlb edə biliblər.

## Anons

*Paytaxtımızda təşkil olunacaq qitə çempionatının iştirakçı sayı açıqlandı* Səh. 2

**Nəriman Abdullayev:** *“Yarışlara qədər idmançılarımız əvvəlki fiziki formalarını tam bərpa edəcəklər”* Səh. 3

*Yarışda qalib, həyatda məğlub olan gimnast* Səh. 6

*Ruslan Lunyov Avropa kubokunun dördüncü mərhələsinin qalibi oldu* Səh. 2

*“Açıq havada olan məşqlər idmançıların fiziki hazırlığı üçün çox vacibdir”* Səh. 3

*İddiaçılar turnirinin bərpa vaxtı dəqiqləşdi* Səh. 2

ADBTİA idman və sağlam həyat tərzinin təbliğində aparıcı rol oynayır Səh. 4

## Paytaxtımızda təşkil olunacaq qitə çempionatının iştirakçı sayı açıqlandı




Bakıda keçiriləcək idman gimnastikası üzrə kişilər və qadınlar arasında Avropa çempionatı üçün iştirakçı sayı açıqlanıb. Milli Gimnastika Arenasında dekabrın 9-da start götürəcək yarışda 39 ölkədən 324 gimnast mübarizə aparacaq. Onlardan 159-u böyüklər, 165-i yuniorlardır. Çempionat beş gün davam edəcək.

Qadınların mübarizəsi dekabrın 17-də başlanacaq. Dörd günlük çempionatda 38 ölkədən 157-si böyüklər, 147-si yuniorlar olmaqla, 304 gimnast iştirak edəcək.

Əslində kişilər mayın 27 - 31-də Bakıda, qadınlar isə aprelin 30-u mayın 3-də Fransanın paytaxtı Parisdə çıxış etməli idilər. Lakin hər iki yarış koronavirus pandemiyası üzündən təxirə salınıb.

Mayın 21 - 24-də isə Ukraynanın paytaxtı Kiyevdə bədii gimnastika üzrə Avropa çempionatı təşkil olunmalı idi. Bu yarışın taleyinə sentyabrın 28-də aydınlıq gələcək.

## Milli Gimnastika Arenasının köməkçi zalı sökülür




Gimnastika növləri üzrə yığma komandaların məşq etdiyi Milli Gimnastika Arenası (MGA) ərazisində yerləşən köməkçi zalın sökülməsinə qərar verilib.

“Olimpiya dünyası” qəzetinin Azərbaycan Gimnastika Federasiyasının rəsmi saytına istinadən verdiyi məlumata görə, buna səbəb zalın istifadə müddətini başa vurmasıdır. Xüsusi konstruksiya əsasında quraşdırılmış bu tip qurğuların istismar müddəti məhdud olduğu üçün bir müddət sonra artıq istifadəyə yararsız olur. 2013-cü ildən fəaliyyət göstərən idman qurğusunun ümumi sahəsi 6000 m2-dir.

Qeyd edək ki, zal 2015-ci ildə keçirilmiş ilk Avropa Oyunları, həmçinin 2017-ci ildə təşkil edilmiş 4-cü İslam Həmrəyliyi Oyunları zamanı əsas məşq bazası kimi fəaliyyət göstərib. Burada həm də Bakıya təlim-məşq toplanışlarına gəlmiş xarici ölkə gimnastlarının məşqləri keçirilib. Bundan başqa, köməkçi zalda ayrı-ayrı vaxtlarda gimnastika növləri üzrə yerli çempionat və birinciliklər təşkil edilib.

## “Təhsil Liqası” başa çatdı

“Təhsil” Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 2019-2020-ci illər mövsümü üzrə 8 və 9 yaşınadək futbolçulardan ibarət komandalar arasında təşkil olunan “Təhsil Liqası”na yekun vurulub. Bakı şəhəri 248 və 267 saylı tam orta məktəblərinin ərazisində yerləşən mini futbol meydançalarında keçirilən yarışlarda U-8 liqasında “Keşlə” birinci olub. “Sabah” yarışı ikinci, “Təhsil” RİM-in 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin komandası isə üçüncü pillədə başa vurublar.

U-9 liqasında isə “Təhsil” RİM-in 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi, “Sabah” və “Keşlə” komandaları ilk üçlükdə qərarlaşıblar.

Liqa yarışları 2019-cu il sentyabrın 27-də start götürüb, hər yaş qrupu üzrə 2 dövrə olmaqla dairəvi sistem formatında keçirilib.

Liqaların keçirilməsində məqsəd idman məktəblərinin futbol bölmələrində ibtidai hazırlıq qruplarının fəaliyyətlərinin gücləndirilməsi, kütləviliyin təmin olunması, uşaqların yarış təcrübələrinin artırılması və onlar arasında dostluq əlaqələrinin yaradılmasından ibarətdir.

## General-mayor Polad Həşimovun xatirəsinə həsr olunmuş stolüstü tennis turniri keçirilib

Şəkidə şəhid general-mayor Polad Həşimovun xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə respublika turniri keçirilib. Şəki Olimpiya İdman Kompleksinin ərazisində, açıq havada oğlanlar və qızlar arasında keçirilən yarışda 10 qız və 10 oğlan komandası mübarizə aparıb. Yarışda oğlanlar arasında ən yüksək nəticəni Şəki komandası göstərib. İkinci və üçüncü yerləri müvafiq olaraq Balakən və Qax rayonlarının stolüstü tennisçiləri qazanıblar. Qızların mübarizəsində isə ilk üçlükdə Qax, Balakən və Şəki tennisçiləri qərarlaşıblar.



Sonda qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

## İddiaçılar turnirinin bərpa vaxtı dəqiqləşdi



Yekaterinburqda dünya şahmat tacına namizədlərin mübarizə apardıqları, lakin koronavirus pandemiyası səbəbindən dayandırılmış turnir noyabrın 1-də davam etdiriləcək.

Bu barədə Beynəlxalq Şahmat Federasiyası məlumat yayıb. Məlumatda bildirilib ki, Tbilisi yarışların təşkili üçün ehtiyat şəhər kimi seçilib.

Bundan əvvəl Sverdlovsk vilayətinin Şahmat Federasiyasının prezidenti Andrey Simanovski turnirin oktyabrın 28-də davam edəcəyi ilə bağlı məlumat vermişdi.

İddiaçılar turniri martın 26-da 7-ci turdan sonra yarımçıq dayandırılıb. Yeddi turdan sonra Yan Nepomnyaşi (Rusiya) və Maksim Vaşye-Laqrav (Fransa) 4,5 xalla birinci və ikinci yerləri bölüşürlər. Yarışın digər iştirakçıları Aniş Qiri (Niderland), Aleksandr Qrişuk (Rusiya), Fabiano Karuana (ABŞ) 3,5, Kiril Alekseyenko (Rusiya) və Dinq Liren (Çin) 2,5 xal toplayıblar.

Xatırladaq ki, ötən il keçirilmiş dünya kubokunun sahibi kimi iddiaçılar turnirinə vəsiqə qazanan Teymur Rəcəbovun bu nüfuzlu turnirdə iştirakı alınmayıb. Şahmatçımızın koronavirusla əlaqədar turnirin təxirə salınması barədə təklifi FİDE tərəfindən qəbul olunmadığından o, iştirakdan imtina etmişdi.

## Olimpiya Güləş Mərkəzində çimərlik güləşi üzrə zal yaradılıb

Azərbaycan Güləş Federasiyası çimərlik güləşinin inkişafı üçün müxtəlif addımlar atır. Bunlardan biri də payız, qış və yaz aylarında məşq edə bilmək üçün qapalı məkanın istifadəyə verilməsidir. Artıq Olimpiya Güləş Mərkəzinin ərazisində çimərlik güləşi üzrə zal tam hazır vəziyyətə gətirilib. Dünya Güləş Birliyinin tətbiq etdiyi standartlara uyğun olaraq hazırlanan və yüksək keyfiyyətli qumla təchiz olunmuş çimərlik güləşi zalı karantin başa çatdıqdan sonra güləşçilərin ixtiyarına veriləcək.



## Kross qaçışı üzrə ölkə çempionatı

Tovuzda kross qaçışı üzrə Azərbaycan çempionatı keçirilib. İki gün davam edən yarışda 100-ə yaxın atlet 8 məsafəyə qaçış üzrə mübarizə aparıb. Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda Bakı, Gəncə, Xızı, Naxçıvan, Bərdə, Xocalı və İsmayıllı komandalarının idmançıları təmsil olunublar.

## WADA-nın keçmiş prezidenti vəfat etdi

Ümumdünya Antidopinq Agentliyinin (WADA) sabiq prezidenti Con Feyhi dünyasını dəyişib. Funksioner 75 yaşında Avstraliyada vəfat edib.

Qeyd edək ki, Con Feyhi 2008-2013-cü illərdə WADA-nın prezidenti olub. Ondan sonra bu vəzifəyə britaniyalı Kreyq Ridi keçib.

## AFFA-dan ayrılan mütəxəssis Afrikada işləyəcək

AFFA-nın Texniki direktoru Bernhard Lippertin yeni iş yeri müəyyənləşib. Almaniyalı mütəxəssis Qana Futbol Assosiasiyasında (GFA) eyni vəzifəni icra edəcək. B.Lippert bu postda Fransis Oti Akentenqini əvəzləyəcək.

GFA-ya texniki direktor postu üçün 100-dən çox məşqçi müraciət edib. Bu vəzifəyə 6 namizəd müsahibə üçün seçilib. Onlardan yarısı yerli, yarısı əcnəbi olub. Həmin şəxslər videokonfrans yolu ilə müsahibələrdən keçib.

Qurumun B.Lippertlə şəxsi şərtləri razılaşdırdıqdan sonra onun təyinatını açıqlayacağı gözlənilir.

Qeyd edək ki, Bernhard Lippert 2008-ci ildən bu ilin iyulunadək Azərbaycanda çalışıb. Lippert bu müddət ərzində U-21 və U-19 yığma komandalarında baş məşqçi kimi də çalışıb.




## Ruslan Lunyov Avropa kubokunun dördüncü mərhələsinin qalibi oldu

Danimarkanın Orxus şəhərində güllə atıcılığı üzrə Avropa kubokunun dördüncü mərhələsi keçirilib.

Yarışda yığma komandanın üzvü Ruslan Lunyov 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışlarında birinci yeri tutub. Təmsilçimiz bu nəticəyə 580 xal toplamaqla nail olub.

Qeyd edək ki, Ruslan Lunyov Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqəni Avropa çempionatında əldə edib. İdmançımız İtaliyanın Bolonya şəhərində keçirilən qitə çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında uğurla çıxış edərək 587 xalla birinci yerə layiq görülüb.

Boks

***"Ölkəmizdə sərtləşdirilmiş karantin rejiminin yumşaldılmasından sonra boks üzrə yığma komandamız açıq havada məşqləri bərpa edib. Operativ Qərargahın qoyduğu tələblərə uyğun olaraq məşqlər açıq hava şəraitində, əsasən isə Heydər Əliyev Mərkəzinin ərazisində və Dənizkənarı Milli Parkda keçirilir".***



## Nəriman Abdullayev:
## "Yarışlara qədər idmançılarımız əvvəlki fiziki formalarını tam bərpa edəcəklər"

Bu sözləri "Olimpiya dünyası" qəzetinə açıqlamasında boks üzrə yığma komandanın böyük məşqçisi Nəriman Abdullayev deyib. Təcrübəli mütəxəssisin sözlərinə görə Federasiya rəhbərliyi tərəfindən idmançılara məşqlərdə karantin qaydalarına əməl olunması ilə bağlı zəruri təlimatlar verilib.

"Uzun müddət təlim-məşqlərin keçirilməməsi, yarışların olmaması idmançıların hazırlıq səviyyəsinə də bir qədər təsir göstərib. Boks Olimpiya idman növüdür və mütəmadi olaraq məşqlərin keçirilməsi vacibdir. Biz məşqçilər də məhz bunun üçün çalışırıq ki, idmançılarımızın hazırlığını lazımi səviyyəyə qaldıraq. Bildiyiniz kimi, karantin rejiminə görə idmançılarımız məşqlərini ev şəraitində etdilər. Təbii ki, belə olan halda taktiki və texniki hazırlıqlar üzərində çalışmaq bir qədər çətin olur. Bundan əlavə idmançı evdə məşq edərkən onun sparrinqi də olmur. Amma boksçular bunu kölgə döyüşü və kisələrlə məşq edərək əvəzləyə bildilər. Məşqçilər də öz növbəsində idmançılara müəyyən proqramlar vermişdilər ki, onlar həmin proqramlar vasitəsi ilə öz fiziki formalarını qorumağa çalışırdılar. Sevindiricidir ki, bütün bunlara baxmayaraq idmançıların idmana olan həvəsləri yüksək səviyyədədir. Bunu son bir neçə gün ərzində açıq havada məşqlərə başlayan hər bir idmançının hərəkətindən və məşqə yanaşmasından görmək olar. Komandanın üzvləri böyük sevinc və həvəslə hazırlıqlara başlayıblar. Təbii ki, məşqlərimizin açıq havada olmasına baxmayaraq Operativ Qərargahın göstərişlərinə uyğun olaraq, sosial məsafə prinsipləri və digər karantin qaydaları gözlənilir. Uşaqlar məşqlərdə tibbi maskalardan deyil, idmançılar üçün olan xüsusi maskalardan istifadə edirlər. Həmin maskaların materialı kapron olur və nəfəs alıb-vermək bir qədər çətinlik yaradır. Amma maskanı çıxardıqda onlar daha rahat şəkildə nəfəs alırlar. Hazırlıqla bağlı ümumi vəziyyət pis deyil. Amma düşünürəm ki, qarşıdakı yaxın aylarda yarış olarsa, bu idmançılara daha da böyük ruh yüksəkliyi verər. Çünki idmançılar bilər ki, yaxın aylarda hər hansısa bir turnir var və o yarışda mükafatçılar sırasında yer almaq üçün daha yüksək forma yığar. Bundan əlavə yarışın olması idmançıda məqsəd və həvəs yaradır. Amma Beynəlxalq Boks Assosiasiyası (AİBA) bu barədə hələ ki, bir məlumat verməyib. Yəqin ki, bu ilin sonuna qədər heç bir rəsmi yarış olmayacaq. Hələ ki, biz də bu barədə AİBA-dan xəbər gözləyirik", - deyə Nəriman Abdullayev qeyd edib.

Təcrübəli mütəxəssis karantin rejimindən sonra idmançıların zədə almaması üçün məşqlərin mərhələli şəkildə keçiriləcəyini bildirib.

"İdmançılar uzun müddətdir ki, peşəkar səviyyədə məşqlərdən kənarda qalıblar. Düzdür bu passivlik onların qarşıdakı vaxtlarda zədə almasına da təsir edə bilər. Bu bir faktdır ki, belə hadisələrə rast gəlmək olar. Bunun üçün məşqçilər heyəti də bütün bilik və bacarığı ilə idmançılara kömək edəcək ki, belə hallarla üzləşməyək. İdmançını birdən-birə çox yükləmək olmaz. Hazırlıq səviyyəsi mərhələli şəkildə olmalıdır.

Operativ Qərargahın qapalı məkanlarla bağlı qərarından sonra komandalar öz bazalarında təlim-məşq toplanışına başlayacaqlar. Zallarda da məşqlərə icazə verilərsə, yeni yarışlara qədər idmançılarımız əvvəlki fiziki formalarını tam bərpa edə biləcəklər", - deyə yığma komandanın böyük məşqçisi bildirib.

*Azər Əlizadə*

Futbol

## "Könüllülər ili" çərçivəsində mini futbol turniri keçirilib



Xəzər Rayon Gənclər və İdman İdarəsinin və Binə qəsəbə bələdiyyəsinin birgə təşkilatçılığı ilə Binədə yeni inşa edilmiş məhəllə futbol meydançasında mini futbol turniri keçirilib.

"Könüllülər ili" ilə əlaqədar keçirilmiş turnirdə 8 komanda iştirak edib. Yekun nəticəyə görə, yarışda birinci yeri "Könüllülər" komandası tutub. İkinci pillədə "Xəzər", üçüncü yerdə isə "Gənclər" komandası qərarlaşıb.

Qalib və mükafatçılar diplom, medallar, sonrakı yerləri tutan komandalar isə həvəsləndirici diplomla təltif olunublar.

Turnirin keçirilməsində məqsəd gənclərin asudə vaxtının səmərəli təşkil edilməsidir.

## İdman yazarı Mirpaşa Miriyevin 100 illiyinə həsr olunan "Redaktor" kitabı çapdan çıxıb

Görkəmli idman yazarı, 1950-ci ildən 1987-ci ilədək "İdman" qəzetinin baş redaktoru olmuş Əməkdar jurnalist Mirpaşa Miriyevin anadan olmasının 100 illiyinə həsr edilən "Redaktor" kitabı işıq üzü görüb. Nəşrdə Mirpaşa Miriyevin həyatından, ölkəmizin idman mətbuatında tutduğu mövqedən, bədən tərbiyəsi və idmanın inkişafında, təbliğindəki xidmətlərindən bəhs olunub, vaxtilə mətbuata verdiyi müsahibələr təqdim edilib.

Kitabın "Ön söz"ünün müəllifi Əməkdar jurnalist Qabil Mehdiyevdir. Nəşrdə Əməkdar jurnalistlər Aqşin Kazımzadənin, Oqtay Bayramovun, Əməkdar elm xadimi Ağacan Abiyevin, yazıçı-publisist Cəmil Əlibəyovun, Əməkdar incəsənət xadimi Ayaz Salayevin, Xalq rəssamı Oqtay Sadıqzadənin, Azərbaycan Bədən Tərbiyəsi və İdman Veteranları İttifaqının sədri Yaşar Məmmədovun və M.Miriyevin qızı Ulduz Miriyevanın xatirələri yer alıb.

Kitabda, həmçinin Mirpaşa Miriyevin müxtəlif illərdə qələmə aldığı "Dəmir qala", "Bir zavodun idmançıları", "Kənd idmançıları", "Çempionlar" və "Yollar birləşir" adlı məqalələri oxuculara təqdim olunur.

"Redaktor" kitabının naşiri AİJF prezidenti, "İdman" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Qabil Mehdiyev, redaktoru isə Əməkdar jurnalist Oqtay Bayramovdur.

Azərbaycan İdman Jurnalistləri Federasiyasının ilk nəşri olan bu kitab Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə işıq üzü görüb.

Güləş

## Hakimlərin dördüncü vebinarı

Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının növbəti vebinarı təşkil olunub. Dördüncü dəfə təşkil olunan onlayn seminarda HK-nın sədri Qərib Əliyev əvvəlcə Dünya Güləş Birliyinin (UWW) hakimlər üçün keçirdiyi son seminarlardakı mövzulardan bəhs edib. O, güləşçilərin qayda pozuntularından, parterdəki vəziyyətdən, fənd zamanı idmançı zədələnərsə, qəbul edilməli olan qərarlardan, fit səsləndikdən sonra edilən fəndlərdən, hakimlərin xalçadakı mövqelərindən, buraxdıqları səhvlərdən, başqa məsələlərdən danışıb. Daha sonra yarımçıq və tam icra olunan fəndlərin əks olunduğu video görüntülər şərh olunub



## Çimərlik güləşi üzrə məşqlərə start verilib

Yeniyetmələr, gənclər və böyüklərdən ibarət qadın güləşçilərimiz çimərlik güləşi üzrə məşqlərə start veriblər. Güləşin bu növü üzrə məşqlərin həftədə iki dəfə keçirilməsi nəzərdə tutulub. Çimərlik güləşi üzrə dünya çempionu Oyan Nəzəriani hazırlıq prosesində qadın güləşçiləri qaydalarla tanış edib. Daha sonra müxtəlif çəkilər üzrə sınaq xarakterli görüşlər keçirilib. Qarşılaşmalar maraqlı və gərgin idman mübarizəsi şəraitində keçib.

Voleybol

## "Açıq havada olan məşqlər idmançıların fiziki hazırlığı üçün çox vacibdir"

Artıq aylardır ki, dünyanı cənginə almış COVİD-19 pandemiyası sadə insanlarla yanaşı, idmançıların da həyatına müəyyən məhdudiyyətlər tədbiq edib. İnsanların sağlamlığını düşünərək ölkə rəhbərliyinin tədbiq etdiyi karantin qaydalarına xalqımız ciddi şəkildə riayət edir. Xəstəliyin bir qədər zəifləməsini nəzərə alaraq, ölkəmizdə bir neçə iaşə obyektlərinin fəaliyyətinə, həmçinin açıq havada məşqlərin və idman yarışlarının keçirilməsinə icazə verilib. Voleybolçularımızın açıq havada məşq proseslərinin necə keçdiyini öyrənmək üçün Azərbaycan Voleybol Federasiyası ilə əlaqə saxladıq. Azərbaycan Voleybol Federasiyasından "Olimpiya dünyası" qəzetinə verilən müsahibəni sizə təqdim edirik.

***- Artıq bir sıra idman federasiyaları ikinci yumşaldılma prosesindən sonra açıq havada məşqlərə başlayıb. Voleybolçularımızın açıq havada məşqləri necə keçir?***

- Bildiyiniz kimi bir müddətdir ki, açıq havada idman yarışlarının və oyunlarının keçirilməsinə icazə verildi. Bu qərar bütün idmançılar kimi, voleybolçularımız üçün də sevindirici xəbər oldu. Açıq havada olan məşqlər idmançıların fiziki hazırlığı üçün çox vacibdir. Qeyd edim ki, bu icazə bizə komandalarımızı bir yerə toplamağa imkan verdi. Təbii ki, məşqlər voleybolçularımızın yalnız fiziki vəziyyətini yüksəltmək üçün tətbiq olunur. Məlumdur ki, açıq havada voleybol yarışları və ya tam şəkildə məşq etmək mümkün deyil. Onu da vurğulayaq ki, milli komandamızın üzvləri Türkiyədə məşqlərinə davam edir. Bunun sayəsində əsas yığmamızın sabahından formalaşan komandamız Türkiyədə beynəlxalq turnirə də qatıldı. Lakin tam məşqlərimiz isə qapalı məkanlarda idman yarışlarının və oyunlarının keçirilməsinə icazə verildikdən sonra bərpa ediləcək.

***- May ayında koronavirus pandemiyası səbəbi ilə voleybol üzrə qadınlar arasında Azərbaycan Super Liqası və kişilər arasında Yüksək Liqada 2019-20-ci illər mövsümü ləğv olundu. Yeni mövsümün keçirilməsi ilə bağlı hansısa qərarlar verilib?***

- 2019-20-ci illər mövsümü ölkə çempionatı (qadınlar və kişilər) iki dövrə, yarımfinal və final mərhələsindən ibarət olmaqla keçirildi. Lakin II dövrənin oyunları zamanı pandemiya səbəbi ilə hər iki çempionatın oyunları dayandırıldı. Bu halda çempionatda komandaların tutduğu yerləri müəyyən etmək üçün bir çox suallar yarandı. Bunlardan ən əsası isə komandaların keçirdiyi oyunların bərabər olmaması oldu. Bu kimi məsələləri nəzərə alaraq, Azərbaycan Voleybol Federasiyası və klub rəhbərliyinin keçirdiyi geniş iclasda dayandırılmış çempionatların nəticələrinin ləğvi haqqında qərar qəbul edildi. Yeni mövsümlə bağlı isə hazırda müzakirələr aparılır. Bildirək ki, Azərbaycan Voleybol Federasiyası yeni mövsümün keçirilməsi ilə bağlı veriləcək qərarlar haqqında məlumatları yaxın zamanda mətbuata açıqlayacaq.



***- MDB oyunlarının da təxirə salındığı məlumdur. Gələn il keçirilməsi gözlənilən yarışlarda həm kişi, həm qadın voleybolçularımız iştirak edəcək?***

- Təəssüf ki, dünyanı cənginə almış koronavirus pandemiyası səbəbi ilə demək olar ki, bütün dünyada ölkə birinciklikləri, beynəlxalq yarışlar dayandırılıb, bəzilərinin isə vaxtı dəyişdirilib. Milli komandalarımızın gələn il keçiriləcək və daha əvvəldən iştirakları nəzərdə tutulan yarışlarda ölkəmizi təmsil etmələri planlaşdırılır. MDB oyunlarında isə eyni qaydada həm kişi, həm də qadın voleybolçuların iştirakı gözlənilir.

*Türkay Niftəliyeva*

— ADBTİA-90 —



*Dilqəm Quliyev,*
*pedaqogika üzrə elmlər doktoru, professor*

# ADBTİA idman və sağlam həyat tərzinin təbliğində aparıcı rol oynayır

Təhsil elmin bazası olduğu kimi, elm də təhsilin hərəkətverici qüvvəsidir. Elmlə təhsili bir-birindən ayırmaq mümkün deyil. Elm və təhsilin bağlılığının səbəbi hər ikisində bilik, məzmun və praktik bacarığın formalaşdırılmasındadır. Təhsili insan dünyaya göz açdığı gündən alır, elmə isə artıq qazanılmış olduğu biliklərin sonda gəldiyi nəticəsinə əsaslanmaqla sahib olur. Bütün elmlərin bünövrəsinin təhsillə qoyulduğu ideyası hər zaman dəstəklənib. Təhsilsiz elm, elmsiz təhsil ola bilməz.

Bu gün müstəqil respublikamızda elmin, təhsilin maddi-texniki bazası inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalar ölkəmizə gətirilir, onların əhalinin geniş kütlələri tərəfindən mənimsənilərək ümumi işin səmərəsi üçün tətbiq edilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Müasir dünyada elm və təhsilin inteqrasiyası mühüm trendlərdən biri kimi çıxış edir. Beləliklə, bu gün təklif olunan inteqrasiyanın iki istiqaməti - təhsildən elmə və elmdən təhsilə yeni deyildir, əksinə, onlar kifayət qədər yaxşı sınaqdan keçirilib. Şübhəsiz ki, informasiyanın artım sürəti yeni idrak metodlarını da diktə edir. Ona görə də bu gün elmlə təhsilin inteqrasiyası fonunda metodoloji yanaşmalar dəyişməlidir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ixtisasından və xüsusiyyətlərindən asılı olaraq vahid tədris planlarının hazırlanması sahəsində (2015-2020-ci illər) də xeyli işlər görülmüşdür.

ADBTİA-nı idman və sağlam həyat tərzinin təbliğində aparıcı rol oynayan, ən müasir tələblərə cavab verən, elmi və praktiki təcrübə əsasında idman təhsilini təmin edən və beynəlxalq standartlara cavab verən ali təhsil müəssisəsinə çevirməkdir. Akademiyada düşünülmüş və ardıcıl islahatlar başlanılmış, tədrisin təkmilləşdirilməsi məqsədilə ilk növbədə maddi-texniki bazanın gücləndirilməsi işləri aparılmışdır. Akademiyada keçirilmiş elmi tədbirlər, beynəlxalq və respublika səviyyəli konfranslar, "Elmi xəbərlər" jurnalının fəaliyyəti, fakültə tələbə elmi cəmiyyətlərinin fəaliyyəti, universitet əməkdaşlarının qazandıqları elmi-tədqiqat qrantları, beynəlxalq elmi əməkdaşlıq, dərc edilmiş elmi işləri əhatə edir.

Elmi fəaliyyətin inkişaf etdirilməsi, onun keyfiyyət səviyyəsinin yüksəldilməsi və ölkəmizin elmi nüfuzunun dünyada gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və bir neçə şirkəti arasında əməkdaşlıq haqqında müqavilələr imzalanıb. Bu müqavilələrə əsasən, ADBTİA-da daxil olmaqla Azərbaycanın 20 ali təhsil müəssisəsi və elmi təşkilatları "Thomson Reuters" informasiya agentliyinin məlumat bazalarına tam çıxış əldə edib.

Akademiyanın təxminən 4600 tələbəsi hər il müəyyən biliklərin və praktiki bacarıqların inkişafını tələb edən müxtəlif fənlər keçir.

## Gənclərin elmi fəaliyyətə cəlb edilməsi üçün bir sıra tədbirlər görülüb

2016/2017-ci tədris ilində Akademiyada Multimedia Mərkəzi yaradılmışdır. "İdman Jurnalistikası" Magistr ixtisasının yeni yaradılmasında əsas məqsəd bu sahədə beynəlxalq səviyyədə rəqabətə davamlı kadrların yetişdirilməsidir.

Respublikanın və xarici ölkələrin aparıcı elmi təşkilatları və ali təhsil müəssisələri ilə elm və təhsil sahəsində əməkdaşlığa dair beynəlxalq (13) və regional (12) səviyyəli (14) müqavilə və ya memorandum imzalanıb.

Beynəlxalq əməkdaşlıqla yanaşı, regional əməkdaşlıq, o cümlədən 12 istehsalat müəssisələri ilə əlaqələr daha da inkişaf etdirilib. Bütün bunları nəzərə alaraq, cari tədris ilinin əvvəllərində Elmi Şurasının qərarı ilə ADBTİA-da Elmi tədqiqatların ekspertizası üzrə Etik komitə yaradılıb. Etik komitə daimi fəaliyyətdə olan orqandır və elmi tədqiqatların etik-hüquqi cəhətdən idarə olunmasına xidmət edir. Elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi məqsədi ilə 2018-ci ildə akademiyanın elmi jurnalının restrukturizasiyası və müasir nəşriyyat standartlarına cavab verməsi istiqamətində işlər aparılmışdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında əsasən 3 elmi istiqamət üzrə elmi-tədqiqat işləri aparılır:

I. Bədən tərbiyəsində kütləvilik və sağlam həyat tərzinin formalaşdırılması (o cümlədən, məktəblilərin və gənclərin fiziki aktivliyi, adaptiv bədən tərbiyəsi, idmanın qeyri-infeksion xəstəliklərin profilaktikasında rolu, sağlam həyat tərzinin təşviqində innovativ yanaşmalar)

II. Peşəkar idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi (o cümlədən, idmançıların fərdi göstəricilərinin yaxşılaşdırılmasına yönəlmiş texnologiyalar və anti-doping, idman məşqində innovativ yanaşmalar və metodikalar, idmanda tibbi-bioloji təminat və reabilitasiya)

III. Bədən tərbiyəsi və idman fəaliyyətinin təşkili (o cümlədən, idman iqtisadiyyatı, idman menecmenti, peşəkar idman tədbirlərinin təşkili məsələləri, kadr hazırlığında innovativ yanaşmalar və metodikalar, tədrisdə yeni texnologiyaların tətbiqi, diplomdan sonrakı təhsilin təkmilləşdirilməsi, idmanda kommunikasiyalar).

İdman tibbi və reabilitasiya kafedrasında, tibb elm sahəsi üzrə əsasən 5 mövzudan elmi tədqiqat işləri aparılmış və mühüm nəticələr əldə edilmişdir. Hazırda ADBTİA-da elmi tədqiqat işi ayrılmış ümumi maliyyələşmə və ödənişli əsaslarla kadr hazırlığından daxil olan vəsait hesabına aparılır. 2018-ci il 25-26 aprel tarixlərində akademiyada "Təhsildə yeniliklərə, idmanda nailiyyətlərə imza ataq!" devizi altında "Müasir idmanda dəyərlər, ənənələr və innovasiyalar" mövzusunda tələbə və magistrantların elmi-praktiki konfransı keçirilmişdir. Bununla yanaşı, 3-4 iyul tarixlərində "Müasir dövrdə bədən tərbiyəsi və idmanın inkişaf perspektivləri" mövzusunda ADBTİA-nın professor-müəllim heyətinin elmi-praktiki konfransı keçirilmişdir.

ADBTİA-nın elm sahəsində beynəlxalq nüfuzunun artırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər aparılıb. Belə ki, Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, Acıbadəm Universiteti, Hacəttəpə Universiteti (42 438 tələbə), Mərmərə Universiteti (51 000 tələbə), İstanbul Universiteti (178 901 tələbə), Ankara Universiteti (66 555 tələbə), Sofiyada "Vassil Levski" Milli İdman Akademiyası, Köln Alman İdman Universiteti (6,000 tələbə), Şeffield Hallam Universiteti (31,500 tələbə) və Lyublyana Universitetinə (42,922 tələbə) səfər etmişlər. Səfər zamanı idman tibbi, idman menecmenti və idman jurnalistikası da daxil olmaqla bədən tərbiyəsi və idman sahəsində mütəxəssislərin hazırlanması üzrə təhsil modelini öyrənmək üçün müxtəlif görüşlər keçirilmişdir. Tədris və elmi-tədqiqat laboratoriyalarının işinin təşkil edilməsinə və onların müasir təhsil prosesində rolunun öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

## Təhsil elmin bazası olduğu kimi, elm də təhsilin hərəkətverici qüvvəsidir

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2017-ci ildən üç yeni magistr ixtisasları - İdman Tibbi və Reabilitasiya, İdman Menecmenti və İdman Jurnalistikası yaradılmışdır. Həmin ixtisaslar üzrə akademiyanın tədris proqramının hazırlanması üçün Köln Alman İdman Universiteti ilə birgə iş barədə ilkin razılıq əldə edilmişdir. Köln Alman İdman Universitetinin professor-müəllim heyətinin akademiyanın tədris prosesinə cəlb edilməsi üzrə növbəti addımların müzakirəsi üçün 2-5 iyun 2016-cı il tarixlərdə akademiyada Alman İdman Universitetinin vitse-prezidenti, professor Kristofer Bruerlə bir neçə görüş keçirilmişdir. Professor Bruerin Gənclər və İdman Naziri və Təhsil Naziri ilə görüşləri zamanı akademiyada daha çox Köln Alman İdman Universitetinin təhsil modelinə istinad etmək məqsədəuyğun hesab edilmişdir.



Bununla yanaşı, "İdman menecmenti", "İdman jurnalistikası" ixtisaslarının inkişaf etdirilməsi məqsədi ilə Birləşmiş Krallığın Şeffild Hallam Universiteti ilə çox yaxından əməkdaşlıq edilir. Akademiyanın Xarici Əlaqələr üzrə sabiq müşaviri Şəmsiyyə Mustafayeva Şeffild Hallam Universitetində işgüzar səfərdə iştirak etmişdir. Universitetin professor Martin Smith Villiam da akademiyada 1 həftəlik işgüzar səfərdə olmuşdur.

"İdman Jurnalistikası" proqramının inkişaf etdirilməsi məqsədi ilə Birləşmiş Krallığın Dan Mason media mərkəzinin rəhbəri olan Dan Masonla sıx əməkdaşlıq edilir. O, akademiyada bir neçə dəfə uzun müddətli işgüzar səfərlərdə olmuş və proqramın hər tərəfli inkişaf etməsi üçün dəstəyini göstərməkdə davam etdirir. Bununla yanaşı həmdə Akademiyada "İdman Jurnalistikasının" proqram direktoru kimi çalışır.

İdman təşkilatlarının təcrübəli menecerləri və bu sahədə öz karyerasına yeni başlayan mütəxəssislər üçün M.V.Lomonosov adına Moskva Dövlət Universiteti İqtisad fakültəsi ilə birgə "İdman menecmenti" ixtisası üzrə ixtisasartırma kurslarının keçirilməsi barədə razılıq əldə olunmuşdur.

ADBTİA-da Böyük Britaniyanın Şeffild Hallam Universiteti ilə birgə idman menecmenti və idman jurnalistikası magistr ixtisasları üzrə kurikulum keçrilib. Eyni zamanda, bu ölkənin Qlazqo Universiteti və London Kollec Universiteti ilə birgə idman tibbi və reabilitasiyası üzrə magistr proqramı hazırlanmışdır. Qeyd olunan proqramlar ingilis dilində və modullar əsasında tədris edilir.

Təhsil elmin bazası olduğu kimi, elm də təhsilin hərəkətverici qüvvəsidir. Hazırda ADBTİA-da 478 (2020-ci il sentyabr ayına olan vəziyyətdə) mütəxəssis çalışır, onlardan da 48 nəfər fəlsəfə doktoru (onlardan 18 nəfəri bədən tərbiyəsi və idman sahəsi üzrədir), 9 nəfəri isə elmlər doktorudur (onlardan bir nəfəri bədən tərbiyəsi və idman ixtisası üzrə pedaqogika üzrə elmlər doktorudur (D.Q.Quliyev)). Ölkədə bədən tərbiyəsi və idman sahəsi üzrə elmi dərəcəsi olan alimlərin təxminən 60 faizi ADBTİA-da çalışırlar. ADBTİA-da Azərbaycanda tədqiqat və işləmələrlə məşğul olanların sayı 2015-ci il kimi 48-ə, 2020-ci ildə isə 41-ə çatmışdır. Maraqlıdır ki, bu sayın 30 nəfəri elmi-tədqiqat təşkilatlarına və 40 nəfəri isə idman akademiyasına aid edilir. Yeri gəlmişkən, 2016-2020-ci illər arasında ADBTİA-da tədqiqat və elmi işlərlə məşğul olanların sayı 3,1 dəfə artdığı halda, başqa təhsil ocaqların bədən tərbiyəsi və idman fakültələrində bu göstərici 2 dəfə azalmışdır. (buna əsas, universtetlərin nəzdində bədən tərbiyəsi və idman kafedraların fəaliyyətin dayandırılmasıdır).

İdman akademiyasında alimlik dərəcəsi olan tədqiqatçıların sayı 60 ildə ölkə üzrə cəmi 47 nəfər (1930-1990-cı illərdə) müdafiə etmişdilərsə, 30 ildə (1991-2018-ci illərdə) isə 27 nəfər alimlik dərəcəsini almışlar. Beləliklə, akademiyada elmin rolu müstəqillik illərində daha üstün sürətlə böyüyür.

Bu sahədə dərc olunmuş elmi işlər, təşkil olunmuş beynəlxalq və milli tədbirlər, həyata keçirilmiş proqram və layihələr, innovasiya sahəsində fəaliyyətin nəticələri öyrənildikdən sonra akademiyada ilk dəfə olaraq doktoranturanın yaradılması barədə qərar qəbul etmişdi. Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyi isə bu işdə hərtərəfli dəstək göstərmişdi. Beləliklə, 2020-ci ildə ilk dəfə olaraq ADBTİA-da doktorantura və magistratura şöbəsi yaradıldı.

Akademiyada son beş ildə doktorontura üzrə təhsil alanların sayı 9, xaricdə təhsil alanların sayı 1, doktoranturaya yeni qəbul olunan dissertantların sayı 1, doktoranturanı bitirənlərin sayı 9, fəlsəfə üzrə müdafiə edənlərin sayı 2, fəlsəfə üzrə müdafiəyə hazırlaşanların sayı 5, elmlər doktoru üzrə 2, magistratura üzrə əyani şöbədə təhsil alanların sayı isə 18-dir. Akademiya əməkdaşlarının elmi fəaliyyətinin əsas göstəricisi kimi elmi-tədqiqat işlərinin yekununa aid elmi məqalələrin beynəlxalq elmi ictimaiyyət tərəfindən birmənalı şəkildə nüfuzlu hesab edilən xarici elmi jurnallarda dərc olunur.

Akademiyada son beş ildə 1571 elmi-metodik əsər çap edilib. Onlardan respublika səviyyəli elmi jurnallarda 981, xaricdə 18, indekslənən jurnallarda isə 8 məqalə çap olunub. Çap olunan monoqrafiyaların sayı 32, dərsliklərin sayı 8, dərs vəsaitlərinin sayı 32, proqram və metodik vəsaitlərin sayı 375-dir. Respublika səviyyəli nəşrlərdə 42, beynəlxalq səviyyəli nəşrlərdə isə 21 tezis çap olunub. Bundan əlavə Akademiya əməkdaşları tərəfindən xarici universitetlərdən olan alimlərlə birgə elmi tədqiqat işləri aparılıb və birgə məqalələr çap etdirilib.

İdman akademiyasında yeni elmi modelin qurulması prosesində bakalavr və magistr ixtisaslarının istiqamətləri ilə əsaslı şəkildə uzlaşdırılır. Məsələn, 1999-2019-cu tədris illərində magistraturanı bitirən 425 məzunundan 315 nəfəri kişi 110-nu qadın olmuşdur. Onlardan 323-ü "Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası", 88-i "Bədən tərbiyəsi və idmanda tibbi bioloji təminat və reabilitasiya", 6-sı "İdman jurnalistikası", 3-ü "İdman menecmenti", 5-i isə "İdman tibbi və reabilitasiya" ixtisaslaşmaları üzrədir. Magistraturada 407 Azərbaycan Respublikasının, 8 Türk Cümhuriyyətinin və 10 İran İslam Respublikasının vətəndaşları təhsil almışdılar. Magistr dissertasiyalarının 354-ü Azərbaycan, 57-si rus, 14-ü isə inglis dilində yazılmışdır.

Təhlillər göstərir ki, hələlik "Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası" ixtisasları magistraturada dominant mövqeyə malik olub 64,3 faiz təşkil edir, qalan 33,4 faiz isə yuxarıda qeyd edilən başqa istiqamətlərdir. Akademiyada "Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası" elmlər üzrə mütəxəssislərin hazırlanması yekunda "Bədən tərbiyəsi və idmanda tibbi bioloji təminat və reabilitasiya", "İdman jurnalistikası", "İdman menecmenti", "İdman tibbi və reabilitasiya" sahələrinin sürətli inkişafını təmin edir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kadr potensialının daha da gücləndirilməsi doktorantların hazırlanması işinə gələcəkdə daha çox töhfə verəcək.

Təhsilin keyfiyyətinin yüksəldilməsi elmi-tədqiqat işləri ilə bilavasitə bağlıdır. Bu baxımdan ali məktəb müəllimlərinin bu sahədəki fəaliyyətlərinə xüsusi önəm verilir. Qabaqcıl ölkələrdə elmi-tədqiqat işləri başlıca olaraq universitetlərdə və tədris müəssisələrində aparılır.

Qabaqcıl Avropa universitetlərində elmi tədqiqat aparmayan müəllim, elmi ictimaiyyətin üzvü olaraq qəbul edilmir. Nəşr yoxsulsa, deməli tədqiqat yoxdur. Elmi tədqiqat fəaliyyəti olmayanlar, müəllimlik məsləyindən kənarlaşdırılır.

## Bu ay ölkəmizdə açıq havada keçiriləcək yarışların sayı açıqlandı



Sentyabr ayı ərzində Azərbaycanda açıq havada 17 idman yarışı keçiriləcək. Bu barədə Gənclər və İdman Nazirliyindən (AGİN) məlumat verilib. Yarışlar basketbol, stolüstü tennis, futbol, mini futbol, stronqmen, atletika, həndbol, florbol, badminton, üzgüçülük və şahmat idman növləri üzrə təşkil olunacaq. Artıq bir sıra idman növləri üzrə yarışlar təşkil olunub. İlk olaraq, sentyabrın 3-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Xüsusi Olimpiya proqramına uyğun olaraq atletika üzrə ölkə turniri keçirilib. Açıq havadakı son yarış sentyabrın 23-də Xüsusi Olimpiya proqramına uyğun olaraq stolüstü tennis üzrə ölkə turniri olacaq.

| Tədbirin adı | Başlanma vaxtı | Keçirilmə yeri |
|---|---|---|
| 1.Xüsusi Olimpiya proqramına uyğun olaraq "Ümumdünya sülh günü"nə həsr olunmuş futbol turniri | 16 sentyabr | Şağan Olimpiya İdman Kompleksi |
| 2.Xüsusi Olimpiya proqramına uyğun olaraq "24 sentyabr - Yunis Kennedy-Şrayver günü"nə həsr olunmuş futbol turniri | 18 sentyabr | Şağan Olimpiya İdman Kompleksi |
| 3. Mini futbol üzrə 2006-2007-ci illər təvəllüdlü oğlanlar arasında "Dəri top kuboku" uğrunda ölkə birinciliyi | 19 sentyabr | Şəmkir Olimpiya İdman Kompleksi |
| 4. Xüsusi Olimpiya proqramına uyğun olaraq badminton üzrə ölkə turniri | 21 sentyabr | Şağan Olimpiya İdman Kompleksi |
| 5. Xüsusi Olimpiya proqramına uyğun olaraq üzgüçülük üzrə ölkə turniri | 21 sentyabr | Su İdmanı Sarayı |
| 6. Xüsusi Olimpiya proqramına uyğun olaraq stolüstü tennis üzrə ölkə turniri | 23 sentyabr | Şağan Olimpiya İdman Kompleksi |
| 7. Şahmat, basketbol 3x3, atletika, mini futbol idman növləri üzrə şəhər və rayonlar üzrə könüllülər kuboku | Avqust-sentyabr | Şəhər və rayonlar |

## 7 idmançımızın medalı əlindən alındı

Antidopinq qayda pozuntusu törətmiş və barəsində idmandan uzaqlaşdırılma qərarı qüvvəyə minən bütün idmançıların dopinq nəzarətinin keçirildiyi zaman əldə etdiyi nəticələri ləğv olunmalı və medalları geri alınmalıdır. Bununla yanaşı, onların əvəzinə həmin nəticəyə avtomatik nail olmuş idmançıların yerləri bərpa edilməli və müvafiq medallar təqdim olunmalıdır. Bu barədə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) tərəfindən aidiyyəti idman federasiyalarına rəsmi məktub göndərilib.

AMADA-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, dopinq nəzarətinin əsas məqsədi idmanda ədalət prinsipinin təmin edilməsi, təmiz idmanın və idmançıların hüquqlarının qorunmasıdır. Hər hansı idmançının qadağan olunan maddə və ya üsullardan istifadə etməklə qazandığı nəticələr idmanda ədalət və bərabər imkanlar prinsipinin, habelə yarışlarda mübarizə aparan digər idmançıların hüquqlarının pozulmasıdır. Bu cür hallarla ciddi mübarizə aparılması ilə yanaşı, yarışlarda iştirak edən digər idmançıların hüquqlarının bərpası vacib məsələlərdən biridir. Bu, yarışlarda iştirak edən digər idmançıların karyerası, idman reytinqi və beynəlxalq yarışlarda iştirak imkanları baxımından əhəmiyyətlidir. Bu səbəbdən qadağan olunan maddə və ya üsullardan istifadə edən idmançıların antidopinq qayda pozuntusu törətdikləri yarışlarda qazandıqları nəticələr ləğv edilməli və rotasiya qaydasında sıralama yenidən tərtib olunmalıdır.

AMADA
STAY CLEAN

Qeyd edək ki, 2019-cu ildə idmanın 5 növü üzrə 5 yarışda (Azərbaycan çempionatı, birinciliyi və kuboku yarışları) 7 idmançıdan toplanmış test nümunələrinin nəticəsi müsbət çıxıb və onların barələrində sanksiya tətbiq olunması ilə bağlı qərar qüvvəyə minib. Həmin idmançıların nəticələrinin ləğv edilməsi (mükafatçılar sırasında olduqları halda medalların geri alınması daxil olmaqla) barədə müvafiq respublika idman federasiyaları məlumatlandırılıb. Həmin idman federasiyalarından AMADA-ya bildirilib ki, qaldırılan məsələ ilə bağlı müvafiq tədbirlər görülüb.

Nəticələri ləğv edilən və medalları geri alınan idmançılar aşağıdakılardır:

- Həsənbəy Həsənzadə (+109 kq) 2019-cu ildə böyüklər arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı - I yer;
- Vasif Səfərov (+109 kq) 2019-cu ildə böyüklər arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı - II yer;
- Orxan Zeynalov (81 kq) 2019-cu ildə böyüklər arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı - II yer;
- Vüqar Şirinov (52 kq) 2019-cu ildə sambo üzrə Azərbaycan kuboku - I yer;
- Aliyə Müslümova (78 kq) 2019-cu ildə keçirilmiş cüdo üzrə U-21 gənclərin Azərbaycan birinciliyi - II yer;
- Jalə Bayramova 2019-cu ildə keçirilmiş güllə atıcılığı üzrə Azərbaycan çempionatı - I yer;
- Kamran Orucov (63 kq) 2019-cu ildə keçirilmiş boks üzrə Azərbaycan çempionatı - III yer.

## "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi çərçivəsində növbəti tədbir

"Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi çərçivəsində növbəti tədbir Tovuz rayonunda keçirilib. Tədbir AFFA və Tovuz Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunub. Layihə Prezident İlham Əliyevin 2019-cu il dekabrın 29-da Azərbaycan Milli Olimpiya Komitəsində idmançılarla görüşü zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi məqsədilə reallaşdırılır.

Rayonun cəbhə bölgəsində yerləşən Əlibəyli, Ağdam, Vahidli, Dondar Quşçu, Bayramlı və Əsrik kəndlərində futbola marağın artırılması məqsədilə 50 məktəbliyə idman geyimləri və futbol topları verilib.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, deputatlar Qənirə Paşayeva, Arzu Nağıyev, Tamam Cəfərova, Sabir Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.



# Formula 1

## Toskanada 90-cı qələbə

"Mercedes" komandasının pilotu Luis Hamilton növbəti qələbəsini qazanıb. Britaniyalı pilot sentyabrın 13-də keçirilən Formula 1 Toskana Qran-Prisinin qalibi olub. L.Hamilton buna "Ferrari" komandasının 1000-ci yürüşdə iştirak etməsi şərəfinə İtaliya komandasının doğma avtodromu "Mucello"da keçirilən yarışda nail olub.

59 dövrəlik mübarizədə ikinci yeri L.Hamiltonun komanda yoldaşı Valtteri Bottas əldə edib. İlk üçlüyü "Red Bull"un pilotu Aleksandr Albon tamamlayıb.

Pilotların siyahısına 190 xalla "Mercedes"in pilotu Luis Hamilton başçılıq edir. "Mercedes"in digər sürücüsü Valtteri Bottas 135 xalla ikinci, Maks Ferstappen ("Red Bull") isə 110 xalla üçüncü pillədə qərarlaşıb.



Yürüşdən əvvəl Formula 1 üzrə yeddiqat dünya çempionu Mixael Şumaxerin oğlu Mik Şumaxer atasına çempionluq gətirən "Ferrari F2004" bolidi ilə "Mucello" trasında dövrə vurub. "Ferrari"nin şərəfinə təhlükəsizlik maşınları da qırmızı rəngə boyadılıb.

L.Hamilton cari mövsüm altıncı, karyerasında isə 90-cı qələbəsini qazanıb. "Mercedes" komandası isə bu mövsüm üçüncü dubluna imza atıb.

Formula 1 Toskana Qran-Prisi cari mövsüm tamaşaçıların iştirakı ilə təşkil olunan ilk yürüşdür. Yarışda 2 min 880 tamaşaçının tribunalara buraxılmasına icazə verilib.

Növbəti yarış sentyabrın 25-27-də Rusiyada təşkil olunacaq.

## Sebastyan Fettel "Aston Martin" ilə müqavilə imzaladı

Formula 1 üzrə dördqat dünya çempionu Sebastyan Fettelin yeni komandası müəyyənləşib. Cari mövsüm başa çatdıqdan sonra "Ferrari"ni tərk edəcək S.Fettelin yeni komandası "Aston Martin" olacaq. Bu barədə komandanın rəsmi saytı məlumat yayıb. Almaniyalı pilot 2021-ci ildən "Aston Martin"də çıxış edəcək. S.Fettel karyerası ərzində 249 yürüşdə iştirak edib. Onlardan 120-də podiuma qalxıb və 53-də isə qələbə qazanıb. Pilot 2010-2013-cü illərdə "Red Bull" komandası ilə ardıcıl 4 dəfə çempion olub.

## Daniel Rikkardo Bakıda qazandığı qələbədən danışdı

"Renault" komandasının hər iki pilotu Montsada (Fransa) xal qazanıb, lakin onlar belə hesab edirlər ki, qırmızı bayraq qaldırılaraq yürüş dayandırılmasaydı, daha yüksək nəticə əldə edə bilərdilər.

Bu yürüşdə 6-cı nəticə göstərmiş Daniel Rikkardo deyib: "Hədsiz dərəcədə gərgin keçən bu yürüş 2017-ci ildə Bakıda keçirilən mərhələni xatırladırdı və nəticə eyni dərəcədə gözlənilməz oldu. Mən Pyeri ilk qələbəsi münasibətilə təbrik edirəm. İndi onun necə hisslər keçirdiyini bilirəm. Bu, təsvirəgəlməz duyğulardır!

Altıncı yer heç də pis nəticə deyil. İndiki şəraitdə mən bundan artığına nail ola bilməzdim. Təhlükəsizlik maşını və qırmızı bayraqlar bizim üçün münasib olmayan məqamda ortaya çıxdı. Bütövlükdə startdan və distansiyada sürətdən razıyam, lakin indi növbəti uik-endə hazırlaşmaq lazımdır".

Səkkizinci nəticə göstərmiş Esteban Okon deyib: "Mən qarışıq hisslər keçirirəm. Bir tərəfdən, yürüş yaxşı oldu, biz xeyli xal qazandıq. Digər tərəfdən, podiumdakı yürüşçülərə baxanda düşünürsən ki, biz də onların arasında ola bilərdik.

Mənim bəxtim gətirmədi, yürüş qırmızı bayraqlarla dayandırılanda biz pitstop keçirməli olduq. Digər iştirakçılar isə vaxt itirmədən şinləri dəyişə bildilər.

Yürüş yaxşı keçdi. Startda mən üç rəqibimi geridə qoydum. Onlardan biri Piyer Qasli bu yürüşün qalibi oldu".

Komandanın rəhbəri Siril Abitebul: "Hər iki yürüşçü əla start götürdü. Daniel Bottası qabaqladı və onun irəli keçməsinə imkan vermədi, Esteban isə bir neçə rəqibini ötüb keçdi. Lakin sonra müxtəlif insidentlər bizim mövqeyimizə mənfi təsir göstərdi, buna görə yekunda biz 6-cı və 8-ci yerlərlə kifayətlənməli olduq. Bu nəticə kefimizi pozub, lakin bəzən belə hallar olur: siz özünüz nəzarət edə bilməyəcəyiniz amillərdən asılı olursunuz.

Belə gərgin trasda ilk səkkizlikdə "Renault" mühərrikli dörd maşını görmək çox xoşdur".

Olimpiya çempionları

# Yarışda qalib, həyatda məğlub olan gimnast

Zinaida Voronina (Drujinina) 1960-cı ilin sonlarının ən məşhur sovet gimnastı sayılırdı. O, 1986-cı ildə Mexiko Yay Olimpiya Oyunlarının qızıl və dünya çempionatının mükafatçısı kimi tarixdə iz qoyub. Onun səmimiyyəti, insani keyfiyyətləri zahiri görkəminə də təsir etmişdi. Buna baxmayaraq, gözəl çöhrəli idmançının şəxsi həyatda bəxti gətirməmişdi. İçki aludəçiliyi, uğursuz nigah və digər səbəblər Olimpiya çempionunu məhvə aparmışdı. Bəs Zinaida nə üçün bu xoşagəlməz hallarla üzləşmişdi? “Olimpiya dünyası” qəzeti məşhur idmançıların həyatından bəhs edən silsilə yazılarından birini də Zinaida Voroninaya həsr edir.



## Güclü və iradəli qalib

Zinaida Drujinina Yoşkar-Ola şəhərində doğulmuşdu. Tanışlarının dediyinə görə, Zinaidanı alkoqol problemi olan anası tərbiyə etmişdi. Amma o, belə bir şəraitdə idmanla məşğul olmaq imkanı qazanmışdı. Qız asudə vaxtlarında idmanın müxtəlif sahələrində məşq edirdi. Gimnastika bölməsi məşqçilik edən məşqçi Antonina Levşeviç belə xatırlayırdı: “Çox cəld, güclü, iradəli, əsl çempiondur.”

Drujinina qısa müddət ərzində yerli turnirlərdə ardıcıl qələbələrlə diqqət çəkdi. O, 14 yaşında olarkən Yeniyetmələrin Ümumittifaq yarışında ən böyük uğurunu qazanmışdı. Qalib olduqdan sonra Drujinina bütün rəqiblərdən güclü olduğunu söyləyərək, gimnastikadan uzaqlaşmağa qərar verdi. Artıq o, ulduz xəstəliyinə tutulmuşdu. Onu məşqçi Antonina Levşeviç bu “xəstəlik”dən xilas edə bildi. Məşqçinin köməkliyi ilə idmançını Moskvaya, “Dinamo” klubuna çağırdılar. 1966-cı ildə SSRİ çempionatında 18 yaşlı Zinaida döşəmə üzərində sərbəst hərəkətlər nümayiş etdirərək, gümüş medala layiq görüldü. Qızıl medal isə beşqat dünya çempionu Polina Astaxova qismət olmuşdu. Bu uğurdan sonra Drujinina milli komandanın heyətində Dortmunda keçiriləcək dünya çempionatına yola düşdü.

O vaxt Sovet komandası yenidənqurma dönəmində idi. Dünya birinciliyində iştirak edən təcrübəli idmançılardan Polina Astaxovaya və doqquzqat Olimpiya çempion Larisa Latınınaya ümid bəslənilirdi. Heyətdəki digər idmançılar üçün qitə çempionatı təcrübə xarakteri daşıyırdı. Buna baxmayaraq Sovet gimnastları üçün bu yarış uğurlu alındı. Yalnız Çexoslavakiya yığmasında geri qalan SSRİ komandası gümüş mükafata layiq görüldülər.

## İki ulduzun görüşü

Tarixi qələbədən sonra yığmanın azarkeşləri birə-beş artmağa başladı. Heyətdə çıxış edən Drujinina yenidən diqqət mərkəzinə düşdü. O, Sovetlər ittifaqının ən gözəl gimnastı hesab olunurdu.

1967-ci ildə Amsterdamda keçirilən Avropa çempionatında Zinaida üç medal (çoxnövçülük - gümüş, gimnastika tiri - bürünc və sərbəst hərəkətlər - bürünc medallar) qazandı.

Bir ildən sonra Zinaida Mexiko Yay Olimpiya Oyunlarında iştirak etdi. O, komanda şəklində çempion oldu. Mütləq birincilikdə gümüş, dayaqla tullanmada və sərbəst hərəkətlərdə iki bürüncə layiq görüldü. Bu möhtəşəm çıxışına görə ona “Şərəf nişanı” ordeni və Əməkdar İdman Ustası adı verdilər.

Zinaida (Voronina) Drujininanın həyatı haqqında onu tanıyanların vasitəsilə daha ətraflı məlumatları birarəya toplamışıq. O, ətrafındakıların xatirində maraqlı hadisələrlə yadda qalıb.

Bədii gimnastika üzrə dünya çempionatının (1967-ci il, Havana, Kuba) mütləq qalibi Yelena Karpuxina Zinaida onu belə xatırlayırdı: “Drujinina təkcə istedadlı idmançı deyildi. O, gözəl bir qadın idi. Onun qüsursuz və cəlbedici yanaşması var idi”. İstənilən söhbətdə həmsöhbətini özünə cəlb edə bilirdi”.

İsveçrəli məşqçi Jak Qyuthart gimnast haqqında deyirdi: “Əgər qadınlardan ibarət yarışların hakimləri kişilər olsaydı, hər zaman dünya çempionu Drujinina olardı”.

Drujininanın böyük azarkeş izdihamı əhatə edirdi. Onların arasında ən ciddisi ikiqat Olimpiya çempionu Mixail Voronin oldu. İdman dünyasında o dövr üçün Mixail ən yaraşıqlı kişi hesab olunurdu. Voronina ailəsinin ən yaxın dostu, akademik avarçəkmə üzrə SSRİ yığmasının üzvü Lidiya İvanova deyirdi: “Bu ağılsız sevgi idi. “Mişka” (Mixail Voronin - red) Zinanı dəlicəsinə sevirdi. Hətta ona şeir də bəstələmişdi. Onun kölgəsinə çevrilmişdi. Mən bunu heç bir yerdə görməmişdim”.

Ulduz cütlük öz vətənində məşhur idi. Toylarına milli yığmadan yüzdən çox idmançı dəvət etmişdilər. Cütlük dövlətdən ev və pul hədiyyəsi də almışdı.

1969-cu ildə Voroninaların Dima (Dmitri) adlı övladı dünyaya gəldi. Bir ildən sonra Zinaida analıq məzuniyyətindən geri qayıtdı. O, Lyublyanada (Keçmiş Yuqoslaviya) keçirilən dünya çempionatına yollandı. İdmançı komanda birinciliyində qızıl və əlavə olaraq üç bürünc medal qazandı. Bu nəticə ilə o, doğuşdan sonra dünya birinciliyini qazanan idmançılardan biri oldu.

## Uğursuzluğun başlanğıcı

Bununla da Zinaidanın uğurları sona çatdı. 1970-ci ildə qadın yığma komandasının tərkibi gəncləşməyə başladı. Artıq Zinaida rəqabətə davam gətirə bilmirdi. Onun məşq etmək həvəsi və istəyi də qalmamışdı. Tez-tez içkili görünürdü.

Voronina yığma komandadan olan tərəf müqabili Tamara Lazakoviçlə dostlaşmışdı. Hansı ki, o da sonradan spirtli içki aludəçisi olaraq, 38 yaşında dilənçi kimi dünyasını dəyişdi. Onlar birlikdə sərxoş vəziyyətdə səs-küylü gəzintilər təşkil edir, həmkarlarını içki məclisinə qonaq edirdilər.

Yığma komandanın məşqçisi Lidiya İvanovanın sözlərinə görə, onları xilas etmək mümkün olmadı: - “Beləsini tərbiyə etmək istəsən, səni söyüşlə başından edər. İdmançının spirtli içki aludəçisi olub, sonradan geri dönüşünə inanmıram. Hər kəs özü bu bədbəxtçilikdən yaxa qurtara bilər”.



**Dosye**

**Adı:** Zinaida

**Soyadı:** Drujinina (Voronina)

**Doğulduğu tarix və yer:** 11.12.1947-ci il, Yoşkar-Ola, Mariyskaya ASSR.

**İdman növü:** idman gimnastikası

**Klubu:** “Dinamo” (Moskva vilayəti)

**Vəfat etdiyi tarix və yer:** 17.03.2001-ci il, Balaşixa, Moskva vilayəti.

**İdman nailiyyətləri:** Mexiko-1960 Yay Olimpiya Oyunları (1 qızıl, 1 gümüş və iki bürünc), 1966-cı ildə Dortmundda keçirilən dünya çempionatı (1 gümüş və 1 bürünc), 1970-ci ildə Lyublyana keçirilən dünya çempionatı (1 qızıl və 3 bürünc), 1967-ci ildə Amsterdamda keçirilən Avropa çempionatı (1 gümüş, 2 bürünc)

## Paytaxtdan 101 km uzaqlaşdırılan sərxoş çempion

1970-ci ildə Zinaida karyerasını bitirdikdən sonra alkoqol problemi daha da gücləndi. Artıq o, ailəsi və oğlu ilə maraqlanmırdı. Tez-tez gizli tədbirlərdə olurdu.

Mixail Voroninin dostu jurnalist Vladimir Qolubev deyirdi: - “Hələ o vaxt hiss olunurdu ki, idmançının həyatında nəsə baş verir. Onun içki şüşəsindən necə bərk-bərk tutduğu göz qabağında idi. Zina özü-özünə düşmən olmuşdu. O, artıq məşqə getmirdi. Hətta oğlunu uşaq bağçasından götürməyi belə unudurdu.”

Tezliklə Mixail Zinaidadan ayrılmaq üçün məhkəməyə müraciət edir. Oğlunu öz himayəsinə götürmək hüququna yiyələnir. Həyat yoldaşından fərqli olaraq o, yığma komandada da çıxışını davam etdirdi. Mixail yalnız ikinci dəfə ailə qurduqdan sonra, idmançı karyerasını bitirib, məşqçiliyə başladı. Zinaida məşq etməyə çalışsa da, alkoqol ona idmanda işləməyə mane oldu.

Jurnalist Qolubevin dediyinə görə, Voronina boşandıqdan sonra əri və oğlu ilə görüşməkdən imtina etmişdi. O, deyirdi: “Deyilənə görə Zinanın uğurları bitdikdən sonra Dimanı nə görmək, nə də eşitmək istəmirdi. Mişa uşağı tək böyüdürdü.”

Zinaidanın keçmiş rəfiqəsi Voroninin dostunun fikirləri ilə razılaşmırdı. Zina uşağın travmalı olmasını istəmirdi. “Zinanın necə ana olmasını mühakimə etmək mənə çox çətindir. Lakin inanmıram ki, o, oğlu ilə görüşməkdən imtina etsin. Dima üçün atası ilə qalmaq daha məqsədəuyğun idi. Zina xəstə olduğunu başa düşürdü”.

Bütün etibarsız, tənbəl və həyatı səfil olmuş idmançıları Moskva-1980 Yay Olimpiya Oyunlarından əvvəl paytaxtdan 101 kilometr məsafəyə uzaqlaşdırdılar. Çünki bu tipli mövzular idman tədbirinə toplaşmış qonaqların təəssüratlarını korlaya bilərdi. Bunların arasında Voronina da var idi.

Tezliklə Zinaida oğuruluqda ittiham olunur. Olimpiya çempionu kiçik bir oğurluğa görə “Mojayski” həbsxanasına düşür. Bununla da onun izi itir.

## Minlərlə azarkeşi olan idmançını dəfn etmək üçün heç kim yox idi

1986-cı ildə Voronina haqqında yeni məlumatlar yayılmağa başlanır. Məlum olur ki, keçmiş idmançı Balaşixa adına Metalərimə zavodunda təsərrüfat işlərində çalışır. Lakin onun işlədiyi yerdə kollektiv Zinaidanın keçmişindən xəbərsiz idi. O, bu istedadı haqqında heç kimə bir söz deməmişdi. Zinaida yaxşı insan kimi tanınsa da, içkidən hələ də əl götürməmişdi. Zavodun işçisi Nikolay onun haqqında deyirdi: “Yaxşı qadın idi. O, burda uzun müddət pis işləmədi. Doğrudur, hərdən içkili vəziyyətdə olurdu. Lakin onun bəxti gətirmədi”.

Nikolayın sözlərinə görə, iş yoldaşları onu içkidən uzaqlaşdırmaq üçün dilə tuturdular. Lakin Zinaida heç kimə qulaq asmırdı. Onları yaxına buraxmaq istəmirdi: “Görünür birinci ərini çox sevirmiş. Axı mən kənar adamam, onun haqqında danışmaq mənə çətindir. Haradansa oxumuşdum ki, əvvəlcə Zinaidanın əri içən olub. O da onunla içib. Sonralar Mixail özünü ələ ala bilib, Zinaida isə bacarmayıb”.

1992-ci ildə Zinaida işlədiyi zavodu tərk edir. Lakin içkidən əl çəkmir. O, bacısının yanına Yoşkar-Olaya qonaq gedir. Vətəndə gimnastı çox gözəl qarşılayırlar. Onu qazandığı uğurlarını şərəflə yad edirən muzeyə aparırlar. Zinaida yerli idman muzeyində ona həsr olunmuş stendin qarşısında uzun-uzadı donub qalır.

2001-ci ildə o, 53 yaşında evində tək ölür. Şahidlərin dediklərinə görə, həmin vaxt idmançını dəfn etməyə heç kim yox idi. Yoşkar-Olada məşhur gimnastın ölüm xəbərini eşidirlər. Həmyerliləri pul yığıb, onun cənazəsini vətənə gətirirlər. Olimpiya çempionu ilə vida mərasimi təşkil edib, onu dəfn edirlər. Daha sonra yerli əhali Voronina adlı xüsusi uşaq və gənclər idman məktəbinin açılmasına nail olurlar.

Gimnastın oğlu Dmitri bu uzun illər ərzində anası ilə heç görüşməsə də, dəfn mərasimində iştirak edir. O, da valideynləri kimi gimnast olur. Zinaidanın keçmiş əri Mixail Voronin isə vida mərasiminə gəlmir. Bu da son, bu da bir ulduzun son parıltısı...

*Hazırladı:*
*Anar Əhmədov*



# FUTBOL

## Azərbaycan Premyer Liqası: Favoritlər turu xal itkisi ilə başa vurdular

Ötən həftə futbol üzrə Azərbaycan Premyer Liqasında ikinci turun oyunları keçirilib. Günün ilk matçında "Neftçi" klubu "Sumqayıt"ı qəbul edib. "Bakcell Arena"da keçirilmiş oyun "Neftçi"nin 0:2 hesablı məğlubiyyəti ilə yadda qalıb. Görüşdə hesab 14-cü dəqiqədə açılıb. "Sumqayıt"ın iranlı hücumçusu Əli Qurbani fərqlənib. Forvard 46-cı dəqiqədə özünün və komandasının ikinci qoluna imza atıb. Görüşün 83-cü dəqiqəsində meydan sahiblərinin heyətində Anton Krivotsyuk ikinci sarı vərəqə alaraq, meydandan kənarlaşdırılıb. Beləliklə, ilk turda "Keşlə"yə məğlub olan "Sumqayıt" yeni mövsümdə ilk 3 xalı aktivinə yazdırıb. Birinci turda "Səbail"i məğlub edən "Neftçi" də eyni xala malikdir.

Günün digər matçında isə son çempion "Qarabağ" səfərdə "Keşlə" ilə üz-üzə gəlib. Qarşılaşma qolsuz bərabərliklə başa çatıb. Bu nəticədən sonra xallarının sayını 4-ə çatdıran "Qarabağ" liderliyini qoruyub. Eyni xala malik "Keşlə" isə 2-ci pillədə qərarlaşıb.

Turun ikinci oyun günündə "Səbail" klubu öz meydanında "Zirə"ni qəbul edib. Qarşılaşma zirəlilərin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hesab 47-ci dəqiqədə açılıb. "Zirə"nin futbolçusu Davit Volkov fərqlənib. Qoldan 20 dəqiqə sonra "Zirə" hesab arasındakı fərqi iki topa çatdırıb. Hakimin təyin etdiyi penaltini Ruslan Qurbanov dəqiq zərbə ilə tamamlayıb.

Beləliklə, "Zirə" klubu Rəşad Sadıqovun rəhbərliyi altında mövsümdə ilk qələbəsini qazanıb.



Bu nəticədən sonra xallarının sayını 4-ə çatdıran "Zirə" turnir cədvəlində üçüncü pilləyə yüksəlib. "Səbail" isə ardıcıl ikinci məğlubiyyətini qazanaraq, xalsız qalıb.

Tura sentyabrın 13-də keçirilən "Sabah" - "Qəbələ" qarşılaşması ilə yekun vurulub. Məsazırdakı "Bank Respublika Arena"dakı qarşılaşma meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda ilk qol 17-ci dəqiqədə vurulub. "Sabah"ın heyətində Coşqun Diniyev uzaq məsafədən topu qapıdan keçirib. Cəmi 10 dəqiqə sonra müdafiəçi Bəhlul Mustafazadə künc zərbəsi zamanı rəqib qapısı qarşısında qarışıqlıqdan istifadə edərək fərqi artırıb.

Komandalar fasiləyə bu hesabla yollanıblar. İkinci hissədə "Sabah" daha bir dəfə qonaqları cəzalandırıb. "Qəbələ"nin kapitanı Asif Məmmədovun kobud səhvindən sonra qapıçını da keçən Ramil Şeydayev topu tora göndərib. Oyunun 77-ci dəqiqəsində "Sabah" meydanda azlıqda qalıb. Slavik Alxasov qırmızı vərəqə alaraq meydandan kənarlaşdırılıb.

Bu qələbədən sonra ilk xallarını qazanan "Sabah" 4-cü pilləyə yüksəlib. Bir xalı olan "Qəbələ" isə 7-ci sıraya geriləyib.

## Bakı Olimpiya Stadionu dünyanın ən böyük 50 arenasından biridir

Dünyanın ən böyük stadionlarının siyahısı açıqlanıb. Bakı Olimpiya Stadionu (BOS) da planetin ən çox azarkeş tutumuna malik 50 arenası sırasına düşüb. Tutumu 69 min 870 nəfər göstərilən BOS dünyada 45-ci nəhəng stadiondur. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionunda ötən il Avropa Liqasının final matçı keçirilib, İngiltərə nəhəngləri "Çelsi" ilə "Arsenal" üz-üzə gəlib. Dünyanın ən böyük arenası Şimali Koreyada yerləşən "1 May" stadionudur. Adıçəkilən stadion 114 min tamaşaçı tutumuna malikdir. Avstraliyadakı "Melburn Kriket Qraund"



(100 min 24 nəfər) ikinci sırada qərarlaşır. İlk "üçlüy"ü 99 min 354 tamaşaçı tutumu ilə İspaniyanın "Nou Kamp" stadionu tamamlayır. Məşhur arenalardan "Uembli" (90 min) siyahıda 6-cı, "Siqnal İduna Park" (81 min 365) 14-cü, "Stad De Frans" (81 min 338) 15-ci, "Santyaqo Bernabeu" (81 min 44) 16-cı, "Lujniki" (81 min) 17-ci, "Cüzeppe Meatsa" (80 min 18) 20-ci, "Marakana" (78 min 838) 25-ci, Atatürk Olimpiya Stadionu (76 min 92) 28-ci, "Old Trafford" (75 min 731) 29-cu, "Alyanz Arena" (75 min 24) 30-cu, Roma Olimpiya Stadionu (72 min 698) isə 37-ci pillədə yer alır.

## Messi yardım kampaniyasında iştirak edib

"Barselona"nın hücumçusu Lionel Messi İsrailin "OrCam" şirkətinin yardım kampaniyasında iştirak edib. Argentinalı futbolçu görmə qabiliyyəti zəif olan uşaqlara yüksək texnologiyaya sahib olan eynəklər bağışlayıb. Bu eynəklər onu istifadə edən şəxsin qarşısında hansı əşyaların olduğunu bildirir. Görməsi zəif olan uşaqlara hədiyyə olunan hər bir cihazın qiyməti 4 min ABŞ dolları civarındadır. Lionel Messi yardım kampaniyasının əhəmiyyəti barəsində bunları deyib: "Bu cihaz, görmə problemi olan hər bir kəsin həyatını dəyişdirəcək. "OrCam" şirkətinin elçisi olmaqdan qürur duyuram. Biz bununla bir çox yardıma ehtiyacı olan insana kömək edə bilərik".

## Dünyada ən çox vərəqə göstərilən futbol çempionatları

Beynəlxalq İdman Araşdırmalar Mərkəzi (CIES) son 5 mövsümdə dünyada ən çox vərəqə göstərilən futbol çempionatlarını araşdırıb. Hesabat 87 ölkənin yüksək liqasının göstəricilərini əks etdirir. Azərbaycan Premyer Liqası bu göstəricidə 30-cu sırada yer alıb. Premyer Liqada hər oyuna orta hesabla 4,7 sarı, 0,26 qırmızı vərəqə düşür. Qırmızı vərəqə sayı baxımından Yaponiya (0,08), Norveç (0,10) və Malayziya (0,11) intizamı ilə fərqlənir. Ən çox vərəqənin göstərildiyi liqa isə Boliviya çempionatıdır. Burada hər oyunda orta hesabla 6,32 sarı, 0,60 qırmızı vərəqə olur.

## Avropadan transfer xəbərləri

### İngiltərə

"Real"ın futbolçusu Xames Rodriqesin "Everton"a keçidi rəsmiləşib. Kolumbiyalı yarımmüdafiəçi ilə 2+1 illik müqavilə imzalanıb. Britaniya mətbuatı bu transfer üçün İngiltərə təmsilçisinin 25-30 milyon avro təzminat ödəyəcəyini yazıb.

* * *

"Lester" heyətinə yeni oyunçu cəlb edib. "Atalanta"nın müdafiəçisi Timoti Kastan Premyer Liqa təmsilçisinə keçib. Belçikalı futbolçu ilə 2025-ci ilin yayına qədər müqavilə imzalanıb. "Lester" 24 yaşlı futbolçu üçün qarşı tərəfə 25 milyon avro ödəyib.

* * *

PSJ-nin qapıçısı Alfons Areola karyerasını İngiltərə Premyer Liqasında davam etdirəcək. "Fulhem" 27 yaşlı futbolçunu heyətinə cəlb edib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Areola 2020/21 mövsümünü icarə əsasında "Fulhem"də keçirəcək.

* * *

"Vulverhempton" "Portu"nun yarımmüdafiəçisi Vitor Ferreyranı (Vitinya) bu mövsümün sonuna kimi icarəyə götürüb. Premyer Liqa klubu 20 yaşlı portuqaliyalı oyunçunu birədəfəlik almaq hüququna da malikdir. Qeyd edək ki, "Vulverhempton" bu yay 40 milyon avroya "Portu"dan Fabio Silvanı da transfer edib.



* * *

"Çelsi" hücumçusu Mişi Batşuayi növbəti bir ili Premyer Liqanın digər təmsilçisi "Kristal Pelas"da keçirəcək. Belçikalı forvard yeni komandasına qoşulmazdan öncə "Çelsi" ilə müqaviləsini 2022-ci ilin yayına qədər uzadıb. Mişi artıq ikinci dəfə "Kristal Pelas"a icarəyə verilir. O, əvvəl də bu komandada çıxış edib.



### İtaliya

"Çelsi"nin hücumçusu Olivye Jiru İtaliyanın "Yuventus" klubuna keçə bilər. Turin klubu fransalı futbolçu ilə razılığa gəlib. Tərəflərin 2 illik müqavilə imzalayacağı bildirilib. 33 yaşlı forvardın ilinə 4,5 milyon avro qazanacağı qeyd olunub.

* * *

İtaliyanın "Fiorentina" klubunun rəsmi saytı "Milan"ın sabiq futbolçusu Cakomo Bonaventura ilə müqavilə imzalandığını açıqlayıb. İtaliya mətbuatı razılaşmanın 2022-ci ilin yayına qədər olduğunu yazıb.

31 yaşlı yarımmüdafiəçi Florensiya klubuna azad agent statusu ilə keçib.

* * *

"Milan" "Breşia"nın futbolçusu Sandro Tonalini icarəyə götürüb. Bu barədə klubun saytı məlumat yayıb. İcarə müqaviləsinin müddəti açıqlanmayıb.

"Milan" klubu həmçinin "Real" futbolçusu Brahim Diasi da icarəyə götürüb. 21 yaşlı yarımmüdafiəçinin 2020/2021 mövsümünü icarə əsasında A seriyası təmsilçisində keçirəcəyi bildirilib. O, yeni klubunda 21 nömrəli forma ilə çıxış edəcək.




### Almaniya

Almaniyanın "Bayer" klubu heyətini yeni futbolçu ilə gücləndirib. Bundesliqa təmsilçisi "Roma"nın hücumçusu Patrik Şiki transfer edib. 24 yaşlı futbolçu ilə 5 illik müqavilə imzalanıb. "Bayer" Çexiya yığmasının üzvünə görə "Roma"ya 26.5 milyon avro ödəyib. Qeyd edək ki, Şik "Roma"ya 2017-ci ildə "Sampdoriya"dan transfer edilmişdi.

* * *

"Ayntraxt" klubu "Milan"dan icarəyə götürdüyü Andre Silvanı birdəfəlik transfer edib. 24 yaşlı portuqaliyalı hücumçu Bundesliqa təmsilçisi ilə 3 illik müqavilə imzalayıb.



Qeyd edək ki, "Ayntraxt" Silvanı 2019-cu ilin sentyabrında icarəyə götürmüşdü.

### Fransa

PSJ müqavilə ilə "Sevilya"ya məxsus olan Serxio Rikonu birdəfəlik transfer edib. Ötən ili icarə əsasında Paris təmsilçisində keçirən 27 yaşlı qolkiperlə 4 illik müqavilə imzalanıb. Fransa klubu ispaniyalı oyunçuya görə La Liqa təmsilçisinə 6 milyon avro ödəyib.

PSJ Yulian Draksleri satmaq niyyətindədir. Almaniyalı oyunçunun paytaxt klubu ilə hazırki müqaviləsinin müddəti 2021-ci ilin yayında başa çatır. Drakslerlə "Bayer"in (Leverkuzen) yaxından maraqlandığı bildirilib.



Dünya idmanı

# Qadın futbolçu kişi komandasında oynayacaq

Qadın futbolçu Yuki Naqasato növbəti mövsümdə Yaponiyanın “Hayabusa Eleven” klubunun ikinci divizionunun kişi komandasında oynayacaq. Avropada belə hadisələr baş versə də, Yaponiyada bu ilk dəfə yaşanır. 33 yaşlı Y.Naqasato kişilərlə birlikdə eyni komandada oynayacaq ilk yaponiyalı qadın olacaq. Xanım futbolçu Amerikanın “Çikaqo Red Stars” klubundan icarə hüququ ilə Yaponiya klubuna keçib.



Xatırladaq ki, avqust ayında Niderland çempionatının dördüncü divizionunun təmsilçisi “Foarut” 19 yaşlı Ellen Fokkemlə müqavilə imzalayıb.

Qeyd olunur ki, eksperiment futbolda bərabərliyin inkişafına kömək etmək məqsədi daşıyır.

Qeyd edək ki, Yuki Naqasato 2017-ci ildən ABŞ-da oynayır. Futbolçu çempionat ərzində 52 oyunda meydana çıxıb. 2019-cu ildə o, səkkiz qol vurub və eyni sayda qol ötürməsi ilə yadda qalıb. Yuki Naqasato 2011-ci ildə futbol üzrə dünya çempionu adını qazanıb.



**Üfüqi**

1. 107 yaşlı velosiped yarışı. 4. Tokio Yay Olimpiya oyunlarında cüdo yarışlarına ev sahibliyi edəcək arena. 5. Qarışıq döyüş növləri üzrə keçmiş dünya çempionu Nik... 8. Təbrizi təmsil edən, bu il ölkə kubokunun qalibi olan komanda. 10. “Renn”də çıxış edən Anqola əsilli fransız futbolçu. 11. Qərb konfransında mübarizə aparan Kaliforniya təmsilçisi. 12. Əsl adı Covanni Fidanza olan italiyalı yarımmüdafiəçi. 16. “Çelsi”nin “Şeffild Yunayted”ə icarəyə verdiyi uelsli futbolçu.

**Şaquli**

2. Karyerasında ilk dəfə Montsa Qran-prisində qalib gələn Formula 1 pilotu. 3. Əlbəyaxa döyüş növü. 6. A seriyasında çıxışı edən Berqamo təmsilçisi. 7. Veloyürüşçülərin qrup şəklində düzülüşü. 9. Futbol üzrə yığma komandamızın baş məşqçisi. 13. Biatlon üzrə dünya kubokunun mərhələlərindən biri. 14. “Neftçi”nin UEFA Avropa Liqasında rəqibi. 15. Yeni mövsümdə La Liqaya vəsiqə qazanan sequnda iştirakçısı.

# Mayk Tayson ən yaxşıların siyahısını açıqladı

Boks üzrə superağır çəkidə keçmiş dünya çempionu Mayk Tayson müasir dövrün ən yaxşı boksçularının adlarını açıqlayıb. Əfsanəvi boksçu ukraynalı Vasili Lomaçenkonu, amerikalı Devin Heyn, Şakur Stivenson, Cervont Devis, Erol Spens və Rayan Qarsiyanı ən yaxşıların siyahısına əlavə edib. Onun fikrincə, adlarını sadaladığı boksçuların qarşılaşmaları marağa səbəb olur.

Xatırladaq ki, M.Tayson aprel ayında xeyriyyə turnirlərində çıxış etmək istəyini bildirmişdi. O, hətta zaldan videolar paylaşaraq, məşqlərə başladığını qeyd etmişdi. Noyabrın 28-də idmançının kiçik Roy Cons ilə sərgi qarşılaşması keçirməsi gözlənilir.

Qeyd edək ki, Mayk Tayson 2005-ci ildən rinqə çıxmır. Boksçu keçirdiyi 58 döyüşdən 50-i qələbə ilə başa vurub. O,



döyüşlərdən 44-də rəqibini nakautla zərərsizləşdirib. Həmçinin M.Tayson tarixdə ağır çəkidə dünya çempionu olmuş ən gənc boksçudur.

# US Open turnirində qalmaqal yaşanıb

Amerikalı tennisçi Frensis Tiafu US Open tennis turnirinin dördüncü dairəsində 4 min dollar məbləğində cərimələnib. Buna səbəb isə onun rusiyalı rəqibi Danil Medvedevin oyunun birinci setində qazandığı xaldan sonra qeyri-etik hərəkət etməsi olub. Qarşılaşma D.Medvedevin üç setdə 6:4, 6:1, 6:0 hesablı qələbəsi ilə yekunlaşıb.



Görüşdən sonra fikir bildirən Danil Medvedev ona qarşı edilən hərəkəti görmədiyini deyib. “Onun mənə qarşı pis hərəkət etdiyini görmədim. Biz dost münasibətlərindəyik. Elə bir hadisə olsa belə, düşünürəm ki, o bunu zarafatla edib”, - deyə tennisçi bildirib.

Qeyd edək ki, ötən il D.Medvedev US Open təşkilatçıları tərəfindən cərimələnib. Buna səbəb isə tennisçinin ispaniyalı rəqibi Felisiano Lopesə qarşı keçirdiyi oyunda azarkeşə hörmətsizlik etməsi olub. Tennisçi təşkilatçılar tərəfindən 4 min dollar məbləğində cərimələnmişdi.

# Avstraliya cənub yarımkürəsinin kubokunu qəbul edəcək

Avstraliya 2020-ci ilin noyabr və dekabr aylarında reqbi üzrə cənub yarımkürəsinin kubokunu qəbul etməyə hazırlaşır. Cənub yarımkürəsinin ən güclü komandalarının yarışında Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika və Argentina yığmaları iştirak edəcək. Turnir dairəvi sistem üzrə 12 oyundan ibarət olacaq. Deməli olar ki, bütün oyunların Avstraliyanın Yeni Cənubi Uels ştatının şəhərlərində keçirilməsi planlaşdırılır. İki qarşılaşmanı Kvinslend əyalətində yerləşən Brisben stadionları qəbul edəcək.

Qeyd edək ki, hazırki çempion Cənubi Afrika yığmasıdır. Komandanın aktivində cəmi dörd kubok var. Turnirin tarixində ən titullu komanda isə hesabında 16 mükafat olan Yeni Zelandiyadır.


olimpnews.az - sizin saytınız





# Keçmiş çempion vəfat etdi

Keçmiş peşəkar boksçu Alan Minter dünyasını dəyişib. 1972-ci ildə keçirilən Olimpiya Oyunlarının iştirakçısı olan boksçu 69 yaşında vəfat edib. Məlumata görə, A.Minter uzun müddətdir ki, xərçəng xəstəliyindən əziyyət çəkirdi. İdman karyerasını 1981-ci ildə bitirən boksçunun hesabında 39 qələbə və 9 məğlubiyyət var.

Bildirək ki, 1972-ci ildə keçirilən Olimpiya Oyunlarında Alan Minter bürünc medala layiq görülüb. Səkkiz il sonra peşəkar rinqdə çıxış edən idmançı orta çəki dərəcəsində dünya çempionu tituluna yiyələnib. A.Minter italiyalı Vito Antuofermo üzərində qələbə qazanaraq, Ümumdünya Boks Assosiasiyası (WBA), Ümumdünya Boks Komitəsi (WBC) və “The Ring” jurnalının versiyalarına görə çempion kəmərlərinə sahib çıxıb.

AFFA İcraiyyə Komitəsinin üzvü, İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin direktoru, veteran futbolçu Kazbek Tuayev Məhərrəm və Elmar Məmmədyarova, əzizi

**İzida Fuad qızı Məmmədyarova-İbrahimbəyovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19